# Böyük Qələbənin astanasında

Tarixi günlər yaşayırıq. Bu, o günlərdir ki, Azərbaycan xalqı 200 illik uzun və əzablı dövrdən sonra mənfur qonşularımızın xain, riyakar planlarını pozdu. Çoxdan gözlənilən Qarabağ həsrətinə qovuşmağımıza az qalır. Buna baxmayaraq, düşmən dünyanın gözü qarşısında öz çirkin əməllərindən əl çəkmir. Çünki öyrəşmişdilər, "arxalı köpək qurd basar" məsəlinin hələ də dadlarına çatacağına inanırlar, ona görə ki, sentyabra qədər erməni fitnəkarlığı, erməni yalanları, erməni terroru "ayaq tutmuşdu..."

Məhz dediyimiz tarixdən Ali Baş Komandanımız, Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə bizim üçün önəmli olan dönüş baş verdi. Artıq ermənilər ölkə başçısının təbirincə desək, çox qudurmuşdular. Əslində böyük əndazələri aşmışdılar. Onlara elə gəlirdi ki, elə belə də davam edəcək. Nəzərə almadılar ki, ölkəmiz ağılla, təmkinlə bu müharibəyə hazırlaşıb. Bu illər ərzində ordu quruculuğu sahəsində çox möhtəşəm işlər görüldü, eyni zamanda Azərbaycanın beynəlxalq səviyyədə öz nüfuzunun artmasına nail oldu. Ölkə daxilində böyük sosial, iqtisadi, hüquqi islahatlar həyata keçirildi. Bir sözlə, səbrlə dözdük. Xalqımız inanırdı ki, bir gün gələcək Ali Baş Komandan torpaqlarımızın işğaldan azad edilməsi üçün öz siyasi iradəsini ortaya qoyacaq. Və bu, nəhayət baş verdi.

İndi bütün dünya da görür ki, bizim mübarizəmiz haqq mübarizəsidir. Düşmən də uduzduğunun fərqindədir. Ancaq yenə də nəyə isə ümid edir. Bax, məsələnin "nəyə isə" tərəfinin üstünə gəlmək istərdim.

Əvvəla, bu illər ərzində Ermənistanın siyasi rəhbərliyi BMT-nin torpaqlarımızın işğaldan azad edilməsi barədə qəbul etdiyi 4 qətnaməyə, yumşaq desək, məhəl qoymadı. Çünki havadarlarına arxayın idilər. Bu, əslində beynəlxalq hüququn kobudcasına pozulması idi. Təəssüf ki, sonrakı illər belə ədalətsizlik, necə deyərlər, xroniki bir hala keçdi.

Müqayisə üçün 1994-cü ildə atəşkəs barədə tərəflər razılığa gəldilər. Yada salın, ötən illər ərzində erməni tərəfi bu atəşkəsə riayət etdimi? Onlar nə qədər azərbaycanlının, o cümlədən dinc sakinin ölümünə bais oldular?!

Qayıdaq bugünkü günlərə. Mənfur düşmən ordumuzun qüdrətini, gücünü gördükcə yenə riyakar planlar qurmağa, dünya ictimaiyyətini aldatmağa başladı. Yenə fitnəkar bəyanatlar, yalanlar və erməni xisləti...

Moskvada əldə olunmuş müvəqqəti atəşkəsi yada salaq. Riyakar ermənilər buna riayət etdilərmi? Gəncəni ballistik raketlə vurmaq, özü də bunu gecəyarısı etmək, üstəlik atəşkəsdən sonra həyata keçirmək bir daha erməni faşizminin mahiyyətini ortaya qoydu. Baxın, müharibə başlayandan bəri, bizim 60-dan çox dinc sakinimiz həlak olub (onların arasında qadınlar və uşaqlar da var), 300-ə qədər adam yaralanıb.

İkinci atəşkəs barədə də razılığa gəlindi. Yenə də Gəncə, o cümlədən digər bölgələrimiz hədəfə götürüldü. Yenə də dinc sakinlər həlak oldular, xəsarət aldılar, evləri viran qoyuldu.

Nəhayət, üçüncü dəfə humanitar atəşkəs qüvvəyə mindi. Yenə də erməni faşistləri öz xain, riyakar xislətinə uyğun olaraq onu pozdu.

Ortaya haqlı olaraq sual çıxır: bütün bunların müqabilində ermənilərə "gözün üstündə qaşın var" deyən oldumu? Bəs onda beynəlxalq hüquq harada qaldı? Axı, quldur erməni hakimiyyəti nə BMT-nin mövcud Nizamnaməsinə, nə Haaqa, Cenevrə konvensiyalarına, nə də UNESCO-nun qəbul etdiyi və Ermənistanın da qol çəkib riayət etməli olduğunu çoxlu sayda qərarları hələ də məhəl qoymur. Nüfuzlu beynəlxalq təşkilatlar, o cümlədən BMT, ATƏT və onun Minsk qrupu, Avropa İttifaqı, Avropa Şurası, həmçinin dünyanın aparıcı böyük dövlətləri niyə erməni xunta rejiminə "çıx, özgə torpaqlardan!" demir?

Heç gizlin deyil ki, bizi qınamaq üçün bəhanə gəzirlər. Elə bu günlərdə Fransanın 15 parlamentarisinin qanunsuz olaraq Dağlıq Qarabağa səfər etməsi beynəlxalq hüququn pozulması deyilmi? Ermənilərə tərəfkeşlik etməsinə dair yüzlərlə, minlərlə misal gətirmək olar.

Təxmini hesablamalara görə, ötən illər ərzində mənfur qonşularımız Azərbaycana təkcə iqtisadi cəhətdən 820 milyard dollar dəyərində ziyan vurublar. Təkcə Kəlbəcərdən 13 ton qızılın xaricə daşınması hansı beynəlxalq hüququn tələblərinə uyğundur? Hələ bu quldurların bizə vurduğu digər mənəvi, fiziki, ekoloji ziyanları demirik. Onlar işğal etdikləri torpaqlarımızda 150 mindən çox evi tar-mar ediblər.

Uşaq ölümünə bais olana bu faşistlərə niyə beynəlxalq səviyyədə, qanunlar çərçivəsində cəza verilmir?

Suallar çoxdur və yəqin ki, yaxın zamanlarda Böyük Qələbəmiz əldə olunandan sonra Ermənistanın siyasi rəhbərliyi bir terror dövləti kimi mühakimə olunacaq. Açıq demək lazımdır ki, indiyə qədər istər ermənilərə, istərsə də onun havadarlarına elə gəlirdi ki, elə belə də davam edəcək və Azərbaycan status-kvo ilə barışacaq. Lakin Ali Baş Komandanımız, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz bütün köhnə stereotipləri dağıtdı. Qələbəmizə lap az qalır! Əminik ki, ərazi bütövlüyümüz bərpa olunacaq və cinayətkarlar öz layiqli cəzalarını alacaqlar.

**Yaşar Eyyubov**

**Şamaxı Regional "ASAN xidmət" mərkəzində notariat ofisinin notariusu, Azərbaycan Notariat Palatasının Müşahidə Şurasının üzvü**